...Şair-jurnalist dostum Azər Abdulla "Oğuz eli" qəzetinə əlavə kimi ayrı-ayrı ədəbi şəxsiyyətlərimiz haqqında "Yazıçı" adlı xüsusi buraxılış çap edir. Rəhmətlik Yusif Səmədoğluya, Sabir Əhmədliyə, Anara, Vaqif Səmədoğluya, mənə... həsr olunmuş saylarını xatırlayıram. Sonuncusu Zəlimxan Yaqubun 50 illiyi münasibəti ilə buraxılıb.

Qəzet-kitab nəşrinin çətinləşdiyi vaxtda Azərin bu işi necə zülümlə gördüyünü yaxşı bilirəm. Bir müddət əvvəl Azər Abdulla xüsusi buraxılışın növbəti sayını Fərman Kərimzadəyə həsr etmək arzusunu bildirdi; material toplamaq asandı, amma vəsait yoxdur; Azər yada saldı ki, filan rayonun icra başçısı Fərman ilə dost olub, çörək kəsiblər, bəlkə xahiş edəsən məni qəbul eləsin, ya da elə özün de, qoy həmin nömrənin xərcini çəksin, yazısı, xatirəsi olsa onu da verərik.

Mənim üçün kimdən, nə isə xahiş eləmək qədər əzablı iş yoxdur; öz imkanım olsa, qətiyyən deməzdim; amma Fərmanın xətrinə xüsusi olaraq həmin adamın qəbuluna getdim, xahişimi eşidən kimi başladı: "Rəhmətlik Fərmanı çox istəyirdim, gözəl insan, böyük yazıçı idi, amma vallah, heç prezdentin kitablarının və prezident aparatından gələn kitabların pulunu çatdırıb ödəyə bilmirik; elə birucdan kitabdı, şəkildi, büstdü... gəlir. Fikirləşmirlər, icra başçıları bunun pulunu hardan tapsın..."

Heç nə deməyib durdum... Fərman Kərimzadə ilə sağlığında ağız-ağıza öpüşən, indisə ona həsr olunan bir qəzetə qəpik-quruşunu qıymayan bu adamın icra başçısı keçmək üçün nə qədər pul verdiyini bu rayonda bilməyən yoxdur. Ağlayır, qoy ağlasın...



**SABIR RÜSTƏMXANLI,**
**"Yeni Müsavat", 12-13 mart 2000**